**AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

AZ1025, Bakı şəhəri, Xətai rayonu, Süleyman Vəzirov küçəsi, 91 Tel.: (+99412) 498-08-44
Faks: (+99412) 498-64-49 Elektron poçt: web@agro.gov.az

**2 mart 2026-cı il** **3-22/2-746/2026**

**Azərbaycan Respublikası
Auditorlar Palatasının sədri**

**cənab Vahid Novruzova**

*2025-ci il 5 dekabr tarixli
10-1/2-675/2025 nömrəli sənədə*

*Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyi ilə bağlı*

**Hörmətli Vahid müəllim,**

Azərbaycan Respublikasında müstəqil audit institutunun formalaşması və inkişafı dövlət quruculuğu prosesinin mühüm və ayrılmaz tərkib hissəsidir. Ümummilli Lider Heydər Əliyevin 1994-cü il 16 sentyabr tarixində imzaladığı "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında yaradılan və 1996-cı il 5 aprel tarixindən fəaliyyətə başlayan Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik fəaliyyəti ölkəmizdə maliyyə nəzarətinin, maliyyə və vergi intizamının möhkəmlənməsində, dövlət idarəetmə sisteminin ən vacib alətlərindən olan hesabatlılıq və şəffaflığın daha da gücləndirilməsində mühüm tarixi mərhələdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daimi diqqət və qayğısı sayəsində audit institutu yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu siyasətin məntiqi nəticəsi olaraq Palatanın beynəlxalq əlaqələrinin coğrafiyası xeyli genişlənmiş, nüfuzlu

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
İmzalayan şəxs: Məcnun Məmmədov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/C0mq0H6ZGW48hdMjJQ4c%2BpVdMaS5Nj3WfP30dvJno%2Bk%3D

beynəlxalq audit və mühasibatlıq təşkilatları ilə əməkdaşlıq münasibətləri qurulmuşdur. Auditorlar Palatasının 2003-cü ildən Avropa Mühasiblər və Auditorlar Federasiyasının, 2008-ci ildən isə Beynəlxalq Mühasiblər Federasiyasının tamhüquqlu üzvü olması Azərbaycan audit institutunun beynəlxalq miqyasda tanınmasının və etibarlı tərəfdaş kimi qəbul edilməsinin bariz göstəricisidir.

Ötən illər ərzində Auditorlar Palatası normativ-hüquqi bazanın təkmilləşdirilməsi, beynəlxalq audit standartlarının tətbiqi, milli audit standartlarının hazırlanması, auditor kadrların yetişdirilməsi və maarifləndirmə sahəsində də mühüm işlər görmüşdür.

**Hörmətli Vahid müəllim,**

Bu əlamətdar yubiley – Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyi münasibətilə şəxsən Sizə, Palatanın rəhbərliyinə və bütün üzvlərinə səmimi təbriklərimi çatdırıram. Əminəm ki, Auditorlar Palatası qarşıdakı illərdə də yeni çağırışlara uyğunlaşma və beynəlxalq standartların daha dərindən tətbiqi istiqamətində fəaliyyətini uğurla davam etdirəcək, Azərbaycan dövlətçiliyinin və milli iqtisadiyyatın inkişafına bundan sonra da layiqli töhfələr verəcəkdir.

**Hörmətlə,**

**Nazir** **Məcnun Məmmədov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
İmzalayan şəxs: Məcnun Məmmədov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/C0mq0H6ZGW48hdMjJQ4c%2BpVdMaS5Nj3WfP30dvJno%2Bk%3D

*İcraçı: İsmət Qubatov*

*E-mail: ismat.qubatov@agro.gov.az*

*TEL: 012 498 08 44 (1342)*

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
İmzalayan şəxs: Məcnun Məmmədov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/C0mq0H6ZGW48hdMjJQ4c%2BpVdMaS5Nj3WfP30dvJno%2Bk%3D